**"Gəncəelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin yaradılması və idarəetməyə verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Gəncə şəhər elektrik şəbəkəsinin fəaliyyətinin sağlamlaşdırılması və şəhərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. "Azərenerji" Səhmdar Cəmiyyətinin Gəncə elektrik şəbəkəsinin Gəncə şəhərinin inzibati ərazisində yerləşən paylayıcı hissəsinin bazasında səhmləri ilkin mərhələdə dövlətə məxsus olan "Gəncəelektrikşəbəkə" açıq tipli Səhmdar Cəmiyyəti yaradılsın.

2. Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyinə tapşırılsın:

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq "Gəncəelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin yaradılması ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

"Gəncəelektrikşəbəkə" Səhmdar Cəmiyyəti idarə heyətinin sədrini və üzvlərini təyin etsin, habelə Gəncə şəhərinin elektrik enerjisi ilə etibarlı təchizatını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyinin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Gəncə Şəhər İcra Hakimiyyətinin və "Azərenerji" Səhmdar Cəmiyyətinin nümayəndələrindən ibarət Müşahidə Şurasının tərkibini təsdiq etsin;

(çıxarılıb) [1]

3. "Azərenerji" Səhmdar Cəmiyyətinə tapşırılsın ki, "Gəncəelektrikşəbəkə" Səhmdar Cəmiyyəti ilə birlikdə Gəncə şəhəri üzrə elektrik enerjisinin nəqli və paylanmasının təhlükəsizliyinə və etibarlılığına nail olmaq məqsədi ilə elektrik enerjisi sisteminin operativ idarəetmə sxemini və mexanizmini 3 ay müddətində yenidən işləyib müəyyən edilmiş qaydada təsdiq etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**
**Bakı şəhəri, 1 iyul 2000-ci il**

**№ 458**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2942.**